Azərbaycan Respublikası Prezidentinin
2003—cü il 18 fevral tarixli
1152 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

# Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial—iqtisadi inkişafa dair

# MİLLİ PROQRAM


**1. Giriş**

**2. Milli Proqramın əsas məqsəd və vəzifələri**

**3. Əhali və əmək ehtiyatları**

**4. Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə**

4.1. Su ehtiyatları

4.2. Atmosfer havası

4.3. Torpaq ehtiyatları

4.4. Meşə ehtiyatları

4.5. Balıq ehtiyatları

4.6. Tullantılar

4.7. Ətraf mühitə dair qanunvericilik

**5. Qlobal ekoloji problemlər**

5.1. İqlim dəyişmələri

5.2. Səhralaşmaya qarşı mübarizə

5.3. Biomüxtəlifliyin qorunması

**6. Sənaye kompleksləri**

6.1. Yanacaq—energetika kompleksi

6.2. Neft—kimya kompleksi

6.3. Dağ—mədən sənayesi

6.4. Tikinti sənayesi

6.5. Nəqliyyat

**7. Kənd təsərrüfatı**
**8. Turizm**

**9. Elm, təhsil və mədəniyyət**

9.1. Elm və təhsil

9.2. Mədəniyyət

**10. Milli Proqramın həyata keçirilməsi üçün tədbirlər planı**

# *1. GİRİŞ*

Cəmiyyətdə sosial—iqtisadi səviyyənin qeyri—bərabər inkişafı ilə əlaqədar üçüncü minilliyin başlanğıcı özünəməxsus xüsusiyyətlərinə görə aşağıdakı kimi fərqlənir:

ilk növbədə texniki—iqtisadi inkişafın nailiyyətlərindən bəhrələnməklə dünya əhalisinin müəyyən hissəsinin həddindən artıq varlanması, digər hissəsinin isə yoxsulluq içində qalmasının getdikcə dərinləşməsi, habelə insan sivilizasiyasının və onu əhatə edən qlobal ətraf mühitin sabitliyinin təhlükə qarşısında qalması ilə;

digər tərəfdən isə, dünyanın müxtəlif regionlarında iqtisadiyyatın coşqun inkişaf sürəti ilə ətraf mühitin mühafizəsi problemlərinin uzlaşdırılmaması və bu sahədə mövcud olan fərqin daha da artması nəticəsində qlobal ekosistemlərə mənfi təsirin güclənməsilə.

Müasir dövrdə atmosferin ozon qatının dağılması, iqlimin getdikcə istiləşməsi, səhralaşma prosesinin zaman ötdükcə daha geniş əraziləri əhatə etməsi, bioloji müxtəlifliyin kəskin azalması, ətraf mühitin çirklənməsi ilə əlaqədar müxtəlif xəstəliklərin geniş yayılması bəşəriyyəti narahat edən ən qlobal ekoloji problemlərdəndir. Zaman keçdikcə qeyd olunan bu problemlərin həll edilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi daha da aktuallaşır. Vaxtında həllini tapmamış, kiçik bir təbiət hadisəsi kimi izah olunan problemlər indi artıq bəşəriyyət qarşısında qlobal, qarşısıalınmaz fəlakətlərlə başa çata biləcək prosesə çevrilmişdi.

1992—ci ildə Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə Rio—de—Janeyro şəhərində keçirilmiş beynəlxalq konfransda qeyd edildiyi kimi, dünyanın gələcək inkişafı ilk növbədə ekoloji problemlərin necə həll olunmasından asılı olacaqdır. Bu konfransda dünyada mövcud olan ətraf mühit problemlərinin həlli yolları çox ciddi şəkildə nəzərdən keçirilmiş və mühüm qərarlar, o cümlədən artıq bütün Beynəlxalq ekoloji təşkilatların proqram sənədinə çevrilmiş «Dayanıqlı inkişaf» konsepsiyası qəbul edilmişdir. Bu konsepsiyada iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, burada üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin ilk növbədə həll olunması, gələcək nəsillərin

imkanları məhdudlaşdırılmadan çağdaş nəsillərin rifahının yaxşılaşdırılması ön xəttə çəkilmişdir. Buna nail olmaq üçün ilk növbədə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi və ətraf mühitin qorunması təmin olunmalıdır.

Rio—de—Janeyroda keçirilmiş bu konfrans ekoloji problemlərin həllində hər bir ölkənin ətraf mühitinin qorunması problemini ümumbəşəri kontekstə çıxartmışdır. Bu gün artıq ətraf mühitin mühafizəsi məsələləri aparıcı beynəlxalq təşkilatların proqram sənədlərində öz əksini tapmışdır. Belə ki, bu yaxınlaradək hətta NATO, ATƏT kimi təşkilatlar belə yalnız məhəlli münaqişələrin həlli və təhlükəsizlik problemləri ilə məşğul olurdularsa, indi onlar ekoloji problemləri ciddi şəkildə gündəliklərinin başlığına çıxarırlar.

Azərbaycan Respublikası son illər sosial və iqtisadi inkişaf sahələrində kifayət qədər nailiyyətlər əldə etmişdir ki, bu tərəqqi də milli və beynəlxalq sənədlərdə təsdiqlənmişdir. Sosial və iqtisadi sahələrdəki nailiyyətlərin artmasının dayanıqlı olması ölkə tərəfindən əsas prioritet kimi qəbul edilmişdir. Nəzərdə tutulur ki, daha optimal nəticələr Ekoloji cəhətdən dayanıqlı sosial—iqtisadi inkişafa dair Milli Proqramın (bundan sonra — Milli Proqram) hazırlanması və həyata keçirilməsi əsasında əldə edilə bilər.

Mütərəqqi bəşəriyyətin qəbul etdiyi «Dayanıqlı inkişaf» konsepsiyasının prinsiplərinin həyata keçirilməsinə xidmət edən Milli Proqram «Azərbaycan Respublikasının 2002—ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001—ci il 26 dekabr tarixli 612 nömrəli Fərmanının 19—cu bəndinə əsasən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmışdır.

Ölkənin ümumi inkişaf strategiyasının ayrılmaz hissəsi olan bu Milli Proqramın işlənməsi ətraf mühitin qorunması sahəsində fəaliyyətin koordinasiyasının gücləndirilməsi yolu ilə milli, regional və beynəlxalq səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiqi, indiki və gələcək nəsillərin maraqlarını təmin edərək iqtisadi və insan resurslarının istifadəsində davamlılığın təminatına yönəlmişdir.

Bu Milli Proqram dayanıqlı inkişafın əsas istiqamətlərini müəyyənləşdirməklə müvafiq tədbirlər sistemini əhatə edir.

Milli Proqram dayanıqlı inkişaf sahəsində dünyada toplanmış ən yeni biliklər nəzərə alınaraq zamanın sınağından çıxmış ekoloji prinsiplərə, milli mədəniyyətə və təcrübəyə əsaslanır.

Milli Proqram Azərbaycan Respublikası üçün mövcud problemlərin həllinin ilkin mərhələsi olaraq, 2003—2010—cu illərdə həyata keçiriləcək tədbirlər planını əhatə edir.

Bu proqrama əsasən müxtəlif sahələr üzrə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan fəaliyyət planları hazırlanmalıdır.

## *2. MİLLİ PROQRAMIN ƏSAS MƏQSƏD VƏ VƏZİFƏLƏRİ*

Milli Proqramın məqsədi Azərbaycan Respublikasında indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunmasından və təbii ehtiyatlardan səmərəli istifadə edilməsindən ibarətdir. Bunu gerçəkləşdirmək məqsədi ilə təbii ehtiyatlardan istifadə yolları işlənib hazırlanmalı və iqtisadiyyatın inkişafı davamlılıq prinsipləri əsasında həyata keçirilməlidir. Nəticə etibarı ilə həmin potensialın çeşidini kifayət qədər artırmaq, təkmilləşdirmək və keyfiyyətini yüksəltməyə xidmət edən iqtisadi bazanın formalaşmasına nail olmaq mümkündür. Bu zaman iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etdirilməsi və yeni iş yerlərinin yaradılması

məqsədilə iqtisadi potensiallardan və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi nəzərdə tutulur.

Milli Proqramın tədbirlər planının həyata keçirilməsi kompleks yanaşmanı tələb edir. Buraya ölkənin ekoloji və iqtisadi ehtiyatlarının milli, regional, beynəlxalq əsaslarla idarə olunması yollarının axtarılması, müvafiq şəraitdə hər hansı bir amilin qiymətləndirilməməsi nəticəsində ətraf mühitə və iqtisadiyyata dəyəcək potensial ziyanın mahiyyətinin dərk edilməsi və qarşısının alınması daxildir.

İnkişafın ekoloji baxımdan dayanıqlı olmasını təmin etmək üçün iqtisadi fəaliyyət zamanı meydana çıxan ciddi ekoloji problemləri aradan qaldırmaq, onları məhdudlaşdırmaq zəruridir və Milli Proqram məhz buna yönəldilmişdir.

Milli Proqramın məqsədlərinə, bir—biri ilə qarşılıqlı əlaqədə olan aşağıdakı vəzifələri yerinə yetirməklə nail olmaq olar:

ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün iqtisadi və insan potensialının idarə edilməsinin müvafiq üsullarından istifadə edilməsi;

indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən, stimullaşdıran iqtisadi modellərin, texnologiyaların yaradılması və istifadəsi;

eyni və müxtəlif nəsillərin nümayəndələri arasında təminatın ədalətlilik prinsipləri əsasında həyata keçirilməsi;

insanın həyat fəaliyyətini təmin edə biləcək sistemlərin, ekosistemlərin və biomüxtəlifliyin qorunması.

Bu vəzifələrin həyata keçirilməsi aşağıdakı prinsiplərə əsaslanır:

qısa müddətli və uzunmüddətli iqtisadi, ekoloji və sosial nəticələr və ehtimal edilən fəsadlar nəzərə alınmaqla qərarların qəbul edilmə prosesinin həyata keçirilməsi;

dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi sahəsində qərarların qəbul edilməsi proseslərində alternativ variantların nəzərə alınması;

ətraf mühitin hər hansı komponentinin bərpa olunmayan dərəcədə pozulmasına səbəb ola biləcək iqtisadi, sosial və ekoloji layihələrin həyata keçirilməsinin qarşısının alınması;

ətraf mühitin qorunması və dayanıqlı inkişafın təmin edilməsi üçün müvafiq vəsaitin ayrılmasına imkan yaradan güclü və çoxşaxəli iqtisadi inkişafın təmin edilməsi;

dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi sahəsində qərar qəbul etmə prosesində qeyri—hökumət təşkilatlarının nümayəndələrinin cəlb edilməsinin genişləndirilməsi.

Milli Proqramın icrası zamanı iş prinsiplərinin biri digəri üzərində üstünlük təşkil etməməlidir. Milli Proqramda müəyyən edilmiş bütün komponentlər birbiri ilə əlaqələndirilmiş şəkildə tətbiq edilməlidir.

Qeyd edilən vəzifələrin yerinə yetirilməsi üçün ilk növbədə Azərbaycan Respublikasının dövlət orqanlarını, iqtisadiyyatın ayrı—ayrı sahələrini və ictimaiyyəti dayanıqlı inkişaf haqqında məlumatlarla təmin edən informasiya sistemlərinin yaradılması vacibdir.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Proqramın bütövlükdə yerinə yetirilməsi üçün lazımi metodiki göstərişlərlə, riyazi proqramlarla və elmi məlumatlarla təminatı həyata keçirəcəkdir.

## *3. ƏHALİ VƏ ƏMƏK EHTİYATLARI*

Əhali eyni zamanda həm istehsalçı, həm də istehlakçı kimi cəmiyyətin əsasını təşkil edir. 2001—ci ilin statistik məlumatına əsasən respublika əhalisi 8,1 mln. nəfər olmuşdur. Bunun 51%—i şəhər, 49%—i isə kənd əhalisindən ibarətdir.

Zəngin təbii və əmək ehtiyatları olan Azərbaycanda insan inkişafı üçün yüksək potensial vardır. Bu potensialdan düzgün istifadə edərək əhalinin sağlamlığını təmin edən ekoloji mühit yaratmaqla dayanıqlı inkişafı təmin etmək mümkündür.

Ətraf mühitin keyfiyyəti insanların sağlamlığı üçün çox mühüm amildir. Lakin sənaye və kənd təsərrüfatının inkişafı təmin edilərkən, ekoloji amillərin nəzərə alınmaması ilə əlaqədar ölkəmizin ciddi problemlərlə üzləşməsi, respublika ərazisinin böyük bir hissəsinin işğal altında qalması və insanların yaşayış yerlərindən didərgin düşməsi ətraf mühitin mühafizəsi sahələrindəki problemləri daha da dərinləşdirmişdir.

Ölkənin ən ciddi ekoloji problemləri dövlət orqanları ilə bərabər, qeyri—hökumət təşkilatlarının və beynəlxalq təşkilatların diqqətini də cəlb etməyə başlamışdır. Hazırda problemlərin həll edilməsi və ölkənin ətraf mühitinin mühafizəsi sahəsində idarəetmə qabiliyyətini gücləndirmək məqsədilə çoxsaylı fəaliyyət proqramları işlənib hazırlanır. Çay sularının çirklənməsinin qarşısının alınması, atmosfer havasına atılan zərərli maddələrin azaldılması, Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ozon qatının, biomüxtəlifliyin qorunub saxlanması kimi son dərəcə mühüm əhəmiyyətli ekoloji problemlərin uğurlu həlli üçün regional və beynəlxalq əməkdaşlığın hər zaman davam etdirilməsi olduqca zəruridir.

Ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması ilə bərabər, iqtisadiyyatın müxtəlif sahələrində çalışan əhalinin iş şəraitinin yüksəldilməsi bütövlükdə əhalinin ümumi sağlamlığına xidmət edən başlıca amillərdəndir. Lakin qeyd etmək lazımdır ki, respublikada mövcud olan sənayenin əsasını təşkil edən bir çox müəssisələrdəki iş şəraiti ekoloji, sanitar—gigiyenik baxımdan müvafiq tələblərə cavab vermədiyindən, orada çalışan insanların sağlamlığı təhlükə qarşısında durur. Belə vəziyyət xüsusilə neft—kimya, maşınqayırma müəssisələrində daha qabarıq şəkildə təzahür edir.

Uzun illərdən bəri müəssisələrin baxımsız vəziyyətdə olması, köhnəlmiş avadanlıqların müasir texnoloji avadanlıqlarla, eləcə də qaz—toz tutucu filtrasiya sistemlərinin yeniləri ilə əvəz edilməməsi problemin həllini qeyri—mümkün edir.

Əhalinin sağlamlığını təmin etmək üçün isə iş şəraitinin yaxşılaşdırlması əsas şərtlərdən biridir.

Hazırkı dövrdə mövcud vəziyyətdən çıxış yolu, köhnə müəssisələrin rekonstruksiya olunması yolu ilə həm iqtisadi, həm də ekoloji baxımdan müasir tələblərə cavab verən müəssisələrin yaradılmasından ibarətdir.

Ən başlıca cəhətlərdən biri də ondan ibarətdir ki, əmək və əmək ehtiyatlarından düzgün istifadə olunmasının hüquqi əsasları tam işlənilməmişdir. Mütəxəssislərin hesablamalarına görə indiki dövrdə əhalinin bir milyona qədəri işsizdir. Həmin işsizlər əmək qabiliyyətli əhalinin 27 %—ni təşkil edir. İşsizlik xüsusilə keçid dövründə yaşayan dövlətlər üçün səciyyəvi hal olsa da, Azərbaycanda indiki qədər işsizlərin olması qeyri—adi haldır. Yeni iqtisadi siyasətin həyata keçirilməsində işsizliyin tədricən aradan qaldırılması dövlətimizin əsas vəzifələrindən biridir. Hazırda respublikamızda hüquqi dövlətin yaranması ilə əlaqədar bu problemlərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Azərbaycanda dayanıqlı insan inkişafına nail olunması əhəmiyyətli dərəcədə ölkənin həm səhiyyə və həm də ətraf mühitin mühafizəsi sahələrindəki problemlərin həllindən asılıdır. Hər iki sahə sabit iqtisadi irəliləyişə və yaşayış səviyyəsinin yüksəlməsinə təkan verən normativ hüquqi aktlardan bəhrələnməlidir.

# 4. *ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ TƏBİİ EHTİYATLARDAN SƏMƏRƏLİ İSTİFADƏ*

Azərbaycan Respublikası zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan bir dövlət kimi geniş imkanlara malikdir. Lakin uzun illərdən bəri yığılıb qalmış ekoloji problemlər vaxtında öz həllini tapmadığı üçün respublikanın ətraf mühiti həddindən artıq çirkləndirilmişdir. Hazırda respublikamızda həllini təcili tələb edən bir sıra ekoloji problemlər vardır: Bakı və digər iri şəhərlərdə içməli suyun çatışmazlığı, su hövzələrinin, o cümlədən Xəzər dənizinin məişət və sənaye sularının tullantıları ilə çirkləndirilməsi, Xəzər dənizinin səviyyəsinin dəyişməsi ilə əlaqədar vurulan ziyanlar, sənaye mərkəzlərində atmosfer havasına zərərli qazların yol verilən normadan artıq atılması, kənd təsərrüfatı üçün yararlı torpaqların eroziyaya uğraması və şoranlaşması, iri sənaye və yaşayış məntəqələrinin məişət tullantılarının mütəmadi qaydada yığışdırılmaması, tələb olunan qaydada yerləşdirilməməsi, utilləşdirilməməsi və s.

Qeyd olunan ekoloji problemlərin həlli yollarını dayanıqlı inkişaf prinsipləri əsasında müəyyənləşdirmək üçün onları təhlil etmək zəruridir.

### 4.1. Su ehtiyatları

Məlumdur ki, Azərbaycanda əhalinin içməli suya olan tələbatını və kənd təsərrüfatının ehtiyaclarını ödəmək üçün potensial baxımdan kifayət qədər su ehtiyatları yoxdur. Bir sıra rayonlarda, xüsusilə Abşeronda suyun çatışmaması su ehtiyatlarından kifayət qədər səmərəli istifadə edilməməsi ilə izah edilir. Su şəbəkə sisteminin çatışmaması, bir çox kəmərlərin uzun illər istismarı nəticəsində sıradan çıxması, mövcud texniki tələblərə cavab verməməsi ilə əlaqədar təqribən 45—50%—ə qədər içməli su itkisinə yol verilir.

Su çatışmazlığı ilə əlaqədar yaranmış problemləri aradan qaldırmaq üçün müvafiq tədbirlər görməklə müəyyən müsbət nəticələr əldə etmək olar. Lakin bir məsələyə xüsusi diqqət vermək lazımdır. Belə ki, artıq neçə illərdir ki, hətta içməli su ehtiyatları ilə bol olan ölkələrdə hər bir mənzilə su sayğacları qoyulur. Bunun nəticəsidir ki, həmin ölkələrdə əhali mənzilinə gələn sudan maksimum səviyyədə qənaətlə istifadə etməyə çalışır. Azərbaycan kimi içməli su ehtiyatı çox qıt olan bir respublikada isə bu iş istənilən səviyyədə həyata keçirilmir.

Azərbaycanın ən böyük çayları olan Kür və Araz çaylarına qonşu dövlətlər — Gürcüstan və Ermənistanın, o cümlədən respublikamızın yaşayış məntəqələri və sənaye obyektlərindən təmizlənmədən axıdılan məişət və sənaye tullantıları vasitəsilə həddindən artıq çirklənməsi həllini tələb edən mühüm problemlərdəndir. Çayın Xəzər dənizinə tökülən yerində suyun keyfiyyəti yalnız sənayedə istifadə üçün yararlıdır.

Sutəmizləyici qurğuların vəziyyəti də qənaətbəxş deyildir. Respublikanın 75 şəhərindən yalnız 35—də su təmizləyici qurğular vardır. Onlar da yalnız mexaniki təmizləmə vasitələri ilə təchiz olunmuşlar. Bakı şəhərində məişətdən tullanan çirkli suların ümumi həcmi sutkada 1,2 mln. kub/m təşkil edir ki, ondan da yalnız 50 %—i təmizlənir.

Sənaye və məişət su tullantılarının tam təmizlənmədən su mənbələrinə, o cümlədən Xəzər dənizinə il ərzində 250 mln. kub/m axıdılması öz növbəsində digər ekoloji problemlərin yaranmasına səbəb olur. Hər il Xəzər dənizinin hövzəsinə bütün mənbələrdən tullantı suları ilə orta hesabla 1,5—2,0 min ton neft məhsulları, 15—20 min ton asılı

maddələr, 60—65 min ton sulfatlar, 250—300 min ton xloridlər, 15—20 tona qədər fenollar və digər çirkləndirici maddələr daxil olur.

Xəzər dənizində su səviyyəsinin qalxma—enmə prosesi uzun əsrlik tarixə malik olmaqla sahil dövlətləri üçün mütəmadi olaraq bir sıra iqtisadi—sosial və ekoloji problemlər doğurur. 1930—1977—ci illər ərzində Xəzərin səviyyəsi 28 m ətrafında tərəddüd etmişdir. Son 15—16 il ərzində isə onun səviyyəsi ildə orta hesabla 12—14 sm qalxmaqla 26 metrə çatmışdır.

Xəzər dənizində suyun səviyyəsinin qalxması Azərbaycan Respublikasının 825 km—lik sahil zolağını tamamilə öz təsiri altına almış, fəlakət zonasında Azərbaycanın 800 kv. km—lik ərazisinə, 7 şəhəri və əhalisi 1 mln.dan çox olan 35 yaşayış məntəqəsinə, 120—dən çox heyvandarlıq və bir sıra xalq təsərrüfatı obyektlərinə, 15,3 min ha otlaq, 1,2 min ha üzümlük və 120 kv. km. əkinə yararlı torpaq sahəsinə zərər vurmuşdur.

Ölkədə su ehtiyatlarından səmərəli istifadə edilməsi sahəsində mövcud olan problemlər içərisində su mənbələrinin ciddi sanitariya mühafizəsi, su mənbələrinə və içməli suların keyfiyyətinə nəzarəti həyata keçirmək üçün beynəlxalq normativlərə uyğunlaşdırılmış milli dövlət normativləri sistemi yaradılmalıdır.

Su ehtiyatlarının qorunmasının və səmərəli istifadəsinin dayanıqlı inkişaf prinsipləri əsasında həyata keçirilməsi, su ehtiyatlarının idarə edilməsi üzrə milli və regional proqramların realizə edilməsi üçün aşağıdakı tədbirlərin görülməsi zəruridir:

su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində dövlət proqramının hazırlanması və həyata keçirilməsi;

ümumi nəzarət əsasında bu ehtiyatlardan səmərəli istifadənin stimullaşdırılması;

içməli suyun keyfiyyətinin yaxşılaşdırılması və müvafiq standartlara uyğunlaşdırılması;

su ekosistemlərinin fəaliyyətini tənzimləyən müvafiq normativ hüquqi aktların təkmilləşdirilməsi;

transsərhəd çayların çirklənmədən mühafizəsi və onların hövzəsində yerləşən dövlətlər tərəfindən su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə regional və beynəlxaiq əməkdaşlığın genişləndirilməsi;

su çatışmazlığının aradan qaldırılması məqsədilə, sənaye və digər obyektlərdə suyun təkrar istifadəsinin genişləndirilməsi üçün qeyri—ənənəvi sulardan (təmizlənmiş tullantı, kollektor—drenaj və s.) məqsədyönlü istifadə edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi.

## 4.2. Atmosfer havası

Respublikamız müstəqillik əldə etdikdən sonra yaranmış keçid dövrü ilə əlaqədar mövcud iqtisadi əlaqələr pozulduğundan bir çox sənaye müəssisələrinin fəaliyyəti dayandırılmış, bəziləri isə istehsal gücünün 10—20 faizi həcmində fəaliyyət göstərirlər. Bu baxımdan stasionar mənbələrdən atmosfer havasına atılan zərərli maddələrin miqdarı 1990—cı il ilə müqayisədə xeyli azalmışdır. Belə ki, 1990—cı ildə stasionar mənbələrdən atmosfer havasına 2,1 mln. ton zərərli maddələr atıldığı halda, 2000—ci ildə bu göstərici 515 min ton olmuşdur.

Qeyd etmək lazımdır ki, sənaye müəssisələrində mövcud olan qaz—toz tutucu qurğuların əksəriyyəti yarıtmaz vəziyyətdədir. Yaxın gələcəkdə güclü sənaye potensialına malik olan respublikamızda bu müəssisələr fəaliyyətlərini tam bərpa etmiş olsalar, onda iri sənaye şəhərlərimizin atmosfer havası növbəti dəfə ekoloji fəlakət dərəcəsinə çatdırıla bilər.

Avtomobil nəqliyyatından atılan zəhərli qazların miqdarının artması xüsusi narahatlıq doğurur. Köhnə, istismar müddəti çoxdan başa çatmış, ucuz qiymətə xarici dövlətlərdən alınıb gətirilmiş texniki cəhətcə yararsız nəqliyyat vasitələrinin istismarı nəticəsində şəhərlərin havasına külli miqdarda normadan artıq zəhərli qazlar buraxılır.

Şəhər sərnişindaşıma sistemində son illər baş verən proseslər də ekoloji baxımdan ümidverici deyildir. Belə ki, iri sərnişin avtobusları sıradan çıxdıqca onların yerinə daha az sərnişin tutumu olan mikroavtobuslar buraxılır ki, bunun da nəticəsində yollarda tıxaclar yaranır, havaya buraxılan zəhərli qazların miqdarı daha da artmış olur.

Qeyd olunan problemlərin həll edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

sənaye müəssisələrindəki qaz—toz tutucu qurğuların əsaslı təmir edilməsi və ya yeniləri ilə əvəz edilməsi;

nəqliyyatda qurğuşunsuz benzindən (etilsizləşdirilmiş) istifadə olunmasına tam keçilməsi;

tələblərə cavab verməyən köhnə nəqliyyat vasitələrinin utilizə edilməsinin təşkili;

ekoloji təmiz sərnişin nəqliyyat növlərinin tətbiqi, şəhər daxilində «piyada» zonalarının genişləndirilməsi;

sənaye müəssisələrinin ərazisində, onların sanitar—mühafizə zonalarında, yolların kənarlarında yaşıllıqlarının artırılması;

ölkəyə idxal olunan avtomobillərin mühərriklərinin katalitik qaz neytralizatorları ilə təmin edilməsinə və Avropa Şurası ölkələri üçün müəyyən edilmiş toksiklik normalarına uyğunluğuna nail olunması.

### 4.3. Torpaq ehtiyatları

Əsas ekoloji problemlərdən biri də kənd təsərrüfatı üçün yararlı olan 4,1 mln. ha (respublika ərazisinin 47,7 faizi) torpaqların tədricən sıradan çıxmasıdır. Belə ki, bu torpaqlardan hazırda 3,6 mln. ha eroziyaya məruz qalmışdır. Bunlardan 1,3 mln. ha zəif, 1,16 mln. ha orta və 1,14mln.ha yüksək dərəcədə eroziyaya uğramışdır.

Torpaqların şoranlaşması prosesi də çox böyük narahatlıq doğurur. 1,5 mln. ha—dan çox torpaq sahəsi artıq şoranlaşmışdır.

Aqrotexniki qaydalara tam əməl olunmaması, meşələrin sistemsiz qırılması, suvarma suyundan qənaətlə və səmərəli istifadə edilməməsi, kolxoz, sovxoz və kənd təsərrüfatı müəssisələrinin balansında olmuş daxili təsərrüfat suvarma və kollektor—drenaj şəbəkələrinin baxımsızlıq üzündən bərbad vəziyyətə düşməsi və s. eroziya və şoranlaşma prosesini sürətləndirən amillərdəndir.

Mineral ehtiyatların istismarı, xüsusən neft istehsalı və boru kəmərlərinin çəkilməsi təqribən 30 min ha torpağın çirklənməsində əsaslı rol oynamışdır. Torpağın deqradasiyası problemində ən kəskin vəziyyət Abşeron yarımadasındadır. Belə ki, uzun illər ətraf mühitin mühafizəsi nəzərə alınmadan müəyyən dövrlərdə mədənlərdən neftin amansız dərəcədə hasil edilməsi ilə əlaqədar mazut gölləri yaranmış, 10 min ha torpaq sahəsi neftlə çirklənmişdir.

Qeyd olunan problemləri aradan qaldırmaq üçün dövlət tərəfindən xüsusi yardım göstərilməlidir. Əks təqdirdə yararlı torpaqların sıradan çıxması ilə bərabər respublikamızda kənd təsərrüfatının inkişaf etdirilməsi üçün imkanlar məhdudlaşmaqla ekoloji vəziyyət daha da gərginləşə bilər.

Hazırda beynəlxalq maliyyə təşkilatlarının (Dünya Bankı, Avropa İttifaqının TASİS proqramı) və xarici dövlətlərin köməyi ilə neftlə çirklənmiş torpaqların təmizlənməsi, tələb olunan avadanlıqların müəyyənləşdirilməsi sahəsində layihələr işlənilməkdədir.

Torpaqların neft məhsulları, digər sənaye tullantıları, pestisidlər, mineral gübrələrlə çirklənmə səviyyəsini, eləcə də bir sıra tullantıların, o cümlədən neft tullantı və şlamlarının təhlükəliliyini müəyyən edərək qiymətləndirmək üçün normativlər və elmi—metodik nəzarət baza sistemi yaradılmalıdır.

Ekoloji baxımdan dayanıqlı inkişaf prinsiplərinə müvafiq olaraq torpaq ehtiyatlarından səmərəli istifadə olunması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının mühafizə edilməsi və münbitliyinin artırılması məqsədilə milli fəaliyyət planının hazırlanması;

eroziya proseslərinin qarşısının alınması və şoranlaşmış torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi;

neftlə çirklənmiş torpaqlarda rekultivasiya işlərinin davam etdirilməsi, torpaqları neftli birləşmələrdən təmizləyən istehsalat qurğularının yaradılmasına üstünlük verilməsi;

mövcud drenaj—kollektor və suvarma şəbəkələrinin inventarlaşdırılması və onların texniki vəziyyətinin yaxşılaşdırılması;

dağ—mədən işlərinin, yeraltı və yerüstü xətti qurğuların tikilməsi zamanı münbitliyi pozulmuş torpaqların dövri monitorinqinin keçirilməsi və onların rekultivasiya olunması üçün müvafiq tədbirlərin görülməsi;

iri sənaye mərkəzləri ətrafında (Sumqayıt, Gəncə) şlam saxlanılan tullantıların ətraf mühitə vurduğu mənfi təsirin aradan qaldırılması məqsədilə tədbirlərin görülməsi;

təbii və antropogen amillər nəticəsində əmələ gəlmiş süni gölməçə və bataqlıqların qurudulması və torpaq sahələrinin münbitləşdirilməsi.

## 4.4. Meşə ehtiyatları

Azərbaycan Respublikası az meşəli ərazilərə aiddir. Belə ki, ölkə ərazisinin yalnız 11%—i meşələrlə örtülüdür. Keçid dövrünün iqtisadi problemləri, hərbi münaqişə, qaçqın və məcburi köçkünlərin problemlərinin təbiətə, o cümlədən meşələrə artmış təsiri nəticəsində meşələrin həm sahəsi azalır, həm də sanitar və fitosanitar vəziyyəti pisləşir. Meşələrin su və torpaq qoruyucu funksiyalarını, iqlimin formalaşmasına təsiri nəzərə almaqla, bu potensialın qorunması və səmərəli istifadəsi olduqca vacibdir. Eyni zamanda ölkənin torpaq—iqlim şəraiti yeni meşə zolaqlarının salınması üçün olduqca əlverişlidir. Belə meşə zolaqlarının salınması yeyinti və ağac emalı sənayelərini xammal ilə təmin etmək üçün əhəmiyyətlidir və yeni iş yerlərinin açılmasına təkan verə bilər. Bu məqsədlə müvafiq layihələrin hazırlanması tələb olunur.

Keçid dövrünün doğurduğu problemlərdən biri də yerlərdə enerji qıtlığının mövcud olmasıdır. Kənd rayonlarında yanacaq və elektrik enerjisinin çatışmaması ilə əlaqədar yerli əhali məişət problemlərini həll etmək üçün meşə ağaclarını qırırlar ki, bu da öz növbəsində meşə sahələrinin ilbəil azalmasına gətirib çıxarır.

Meşə ehtiyatlarının bərpa edilməsi və genişləndirilməsi, yeni meşə zolaqlarının salınması, o cümlədən təsərrüfat əhəmiyyətli bitkilərin istifadəsi yolu ilə problemləri qismən

həll etmək olar. Lakin əhalinin alternativ yanacaq mənbələri ilə təmin edilməsi problemin həll edilməsində başlıca rol oynamalıdır.

Bu məqsədə nail olmaq üçün:

meşələrdə qanunsuz ağac tədarükü və digər meşə qırmalarının qarşısının alınması ilə əlaqədar tədbirlərin görülməsi;

meşələrin müasir vəziyyətinin öyrənilməsi, inventarizasiya olunması, yeni meşə quruluşu layihələrinin hazırlanması;

meşələrin bərpası üçün tədbirlərin hazırlanması və həyata keçirilməsi;

bərpa olunan meşə ehtiyatlarından (meyvə, dərman və digər bitkilər) səmərəli istifadənin təşkili;

rekreasiya əhəmiyyətli meşə sahələrinin müəyyən edilməsi, onlara yol verilən təzyiq həcminin müəyyənləşdirilməsi, bunun əsasında turizm yönümlü rekreasiya potensialının təyin və istifadəsinin təşkil edilməsi;

yeni əkinçilik sisteminin tələbatlarına cavab verən təsərrüfat əhəmiyyətli meşə—bağların layihələşdirilməsi və salınması;

meşə ərazilərində yerləşən yaşayış məntəqələrində məşğulluq probleminin həlli və təbii meşə ehtiyatları ilə əlaqədar olmayan məşğulluq sahələrinin yaradılması;

inşaat və mebel sənayesi üçün yararlı oduncaq istehsal etmək məqsədilə müvafiq keyfiyyətə malik olan və tez böyüyən ağacların becərilməsi və istismarı;

meşələrdə yanğın hadisələrinin qarşısının alınması məqsədilə xüsusiləşdirilmiş operativ kimyəvi—yanğınsöndürmə stansiyasının yaradılması;

meşələrin fitosanitar vəziyyətinin müəyyən edilməsi, müxtəlif xəstəliklərdən və zərərvericilərdən mühafizə edilməsi məqsədilə mütəmadi olaraq müvafiq tədbirlərin vaxtında həyata keçirilməsi zəruridir.

Göstərilən strateji istiqamətlərin həyata keçirilməsi aşağıdakı ekoloji, iqtisadi və sosial məsələlərin həllinə yönəldilmişdir:

təbii meşələrin bərpası, qorunması və dayanıqlılığının təmin edilməsi;

yeni meşə—bağların salınması və istifadəsi;

meşə—bağların iqtisadi, ekoloji və sosial potensialından səmərəli istifadə edilməsi;

yabanı meyvələrin emalı üzrə yeni müəssisələrin yaradılması.

Meşə ehtiyatlarının istifadəsi sahəsində göstərilən işlərin həyata keçirilməsinin sosial nəticələrindən aşağıdakıları göstərmək olar:

ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması və rekreasiya potensialının artırılması nəticəsində əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşdırılması;

yeni iş yerlərinin yaradılması və bununla əlaqədar yoxsulluğun aradan qaldırılması və əhalinin rifahının yaxşılaşdırılması.

## 4.5. Balıq ehtiyatları

Azərbaycan Respublikası balıqçılığın inkişafı üçün zəngin potensiala malikdir. Bu həm qiymətli balıq növlərinin təbii ehtiyatlarının artırılmasına və istismarına, həm də ölkə iqtisadiyyatı üçün yeni olan bir istiqamətə balıqların Xəzər dənizində süni yolla yetişdirilməsinə (marikultur) aiddir. Bu istiqamətlərin inkişafı üçün həm əlverişli təbii şərait, həm də bu sahələri idarə etməyə qadir olan insan potensialı mövcuddur. Əsas problem Xəzər dənizində və daxili su hövzələrində balıq ehtiyatlarının qorunması, bərpası və təsərrüfat əhəmiyyətli bioloji ehtiyatların artırılmasından ibarətdir,

Problemin həlli üçün ilk növbədə nərəkimilərin ehtiyatlarının qorunması və artırılması mühüm əhəmiyyət kəsb edir. Dünyada bu qiymətli balıq növləri əsasən Xəzər dənizi hövzəsində yaşayır. Bununla əlaqədar bu sahədə beynəlxalq əməkdaşlığın xüsusi əhəmiyyəti vardır. Belə əməkdaşlığın yeni səviyyədə inkişafı həm balıq ehtiyatlarının qorunmasına, həm də balıq ekosistemlərinin yaxşılaşdırılmasına təkan verəcəkdir. Digər bir məqsəd ölkədə ilk dəfə olaraq balıq ehtiyatlarının artırılması sahəsində bu balıq növləri üçün yeni olan marikultura istiqamətinin inkişafıdır.

Bu məqsədə çatmaq üçün qiymətli nərə balıqlarının çoxaldılmasının və istismarının dayanıqlı inkişaf prinsipləri əsasında idarə edilməsinin təmin olunması zəruridir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulur:

Xəzər dənizində nərəkimilərin ehtiyatlarının qiymətləndirilməsi;

balıq ehtiyatlarının artırılmasının idarə edilməsi;

balıq ehtiyatlarının artırılması və bu ehtiyatların istismarı sahəsində beynəlxalq əməkdaşlıq;

daxili su hövzələrində balıq ehtiyatlarının çoxaldılması və yetişdirilməsi;

Xəzər dənizində süni balıqartırma istehsalının genişləndirilməsi.

### 4.6. Tullantılar

Sənaye və məişət tullantılarının uzun illər yığılıb istifadəsiz qalması öz növbəsində gərgin ekoloji vəziyyətin yaranmasına səbəb olmuşdur.

Belə ki, Sumqayıt şəhərində yerləşən Səthi aktiv maddələr zavodunun ərazisində yığılıb qalmış tonlarla civə maddəsi həmin ərazini ekoloji fəlakət zonasına çevirmişdir. Bu maddənin torpağa tədricən sızması, digər tərəfdən isə havaya buxarlanması əhalinin sağlamlığı üçün böyük təhlükə yaradan mənbədir.

İri yaşayış məntəqələrində, xüsusən sənaye mərkəzlərində məişət tullantılarının daşınması və yerləşdirilməsi də xüsusi narahatlıq doğurur.

Bakı, Sumqayıt, Gəncə kimi şəhərlərin kənarlarında saysız miqdarda qanunsuz tullantı poliqonları yaranmışdır ki, bunlar da ətraf mühiti çirkləndirməklə bərabər, həm də insanların sağlamlığı üçün təhlükə yarada bilən xəstəlik mənbələrinə çevrilmişlər.

Tullantı sahələrində təmizlənmə işləri aparılmadan həmin sahələr radiasiya təhlükəsizliyi nöqteyi nəzərdən tədqiq olunmalı, radioaktiv çirklənmə olduqda onların aradan qaldırılması üzrə xüsusi layihələrin icrasından sonra adi təmizlənmə işləri aparılmalıdır.

Artıq bir çox ölkələrdə bu problemin həlli yolları tapılmışdır. Belə ki, əhalisi sıx olan ərazilərdə zibilyandırma zavodları tikilməklə, orada məişət tullantıları yandırılır. Zibillərin yandırılmasından alınan enerji hesabına ətrafdakı yaşayış məntəqələri istilik və elektrik enerjisi ilə təmin edilir. Yandırılmış tullantıların qalıqlarından isə kompost düzəldilib gübrə kimi torpaqların münbitliyini artırmaq məqsədilə geniş istifadə olunur. Göründüyü kimi, kompleks əhəmiyyəti olan belə zavodun tikilməsi Azərbaycan üçün də çox zəruridir.

Ekoloji baxımdan dayanıqlı inkişaf prinsiplərinə müvafiq olaraq tullantıların idarə olunması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

təhlükəli sənaye tullantılarının yerləşdirilməsi üçün yeni poliqonların yaradılması;

məişət tullantılarının çeşidlənməsi, utilizə edilməsi və təkrar emalının təşkili məqsədilə mütərəqqi təcrübədən istifadə olunması;

tullantılardan bioqazın alınması üçün müvafiq üsulların tətbiq edilməsi;

enerji alınması, eləcə də kompost alınması məqsədilə zibilyandırma zavodunun tikilməsi.

Uzun illərdən bəri yığılıb qalmış bu və digər ekoloji problemlərin həll edilməsi üçün ilk növbədə külli miqdarda maliyyə vəsaiti və müasir avadanlıqlar tələb olunur. Bunlara nail olmaq üçün isə iqtisadi keçid dövrünü yaşayan Azərbaycan müasir tələblərə cavab verən ekoloji siyasət yürütməklə beynəlxalq və maliyyə təşkilatları, donor dövlətləri ilə əlaqələri genişləndirməli, ətraf mühiti mühafizə sahəsində dövlətlərarası müqavilələr bağlamaqla müvafiq öhdəliklərin tələblərini yerinə yetirməlidir.

### 4.7. Ətraf mühitin mühafizəsinə dair qanunvericilik

Ekoloji tarazlığın saxlanılması və ətraf mühitin mühafizəsi sahəsində müsbət nəticələr əldə edilməsi üçün müasir tələblərə uyğun qanunvericilik bazasına malik olmaq tələb olunur. Qanunvericilik aktlarının Avropa standartlarına cavab verən tərzdə işlənilməsi vacib şərtlərdəndir.

Bu baxımdan son illər Azərbaycan Respublikasında mühüm əhəmiyyətə malik olan bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir.

Qəbul olunmuş qanunların hər birinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları imzalanmış, aidiyyəti dövlət orqanlarının səlahiyyətləri və həmin normativ hüquqi aktların icra mexanizmi müəyyənləşdirilmişdir.

Mövcud qanunlara müvafiq olaraq əlaqədar təşkilatlar tərəfindən bir sıra normativ sənədlər TƏSDİQ EDİLMİŞDİR. Hazırda digər normativ hüquqi aktların hazırlanması üzərində işlər davam etdirilir.

## *5. QLOBAL EKOLOJİ PROBLEMLƏR*

Uzun illərdən bəri təbii sərvətlərin sistemsiz istismarı, süni xammal ehtiyatlarının alınması üçün texnologiyaların tətbiqinin genişləndirilməsi, əhalinin yüksək templə artımı nəticəsində təbiətə olan müdaxilənin də artması və digər antropogen amillərin təsiri nəticəsində hazırda dünyada bir sıra qlobal ekoloji problemlər meydana çıxmışdır. Buna misal olaraq iqlimin qlobal dəyişməsini, biomüxtəlifliyin azalmasını, səhralaşma prosesinin daha geniş ərazilərə yayılmasını, ozon qatının daralmasını və s. problemləri göstərmək olar.

### 5.1. İqlim dəyişmələri

Azərbaycan Respublikası 1995—ci ildə BMT—nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etmiş, 2000—ci ildə bu Konvensiyaya əlavə oluan Kioto protokolunu imzalamışdır. Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün «Azərbaycan Respublikası tərəfindən 1995—ci il yanvarın 10—da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 1997—ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamı ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası yaradılmışdır. Konvensiyanın tərəfi kimi Azərbaycan iqlim dəyişmələrinin gözlənilən təsirinin azaldılmasına yönəlmiş milli və regional proqramların hazırlanması, həyata keçirilməsi və nəşr etdirilərək ictimaiyyətə çatdırılması kimi öhdəliklər götürmüşdür.

Konvensiyanın tələblərinə uyğun olaraq 1998—99—cu illərdə «İqlim dəyişmələri üzrə birinci milli məlumatlar» layihəsinin I mərhələsi, 2000—ci ildə isə II mərhələsi yerinə yetirilmişdir. Layihənin I mərhələsi çərçivəsində respublikanın ərazisində müasir iqlim dəyişmələrinin tendensiyası müəyyən edilmiş, gözlənilən iqlim dəyişmələrinin ssenariləri (5 ssenari) hazırlanmış, iqlim dəyişikliklərinin neqativ təsirləri nəticəsində baş verə biləcək itkilərin azaldılması üçün milli adaptasiya planı, qlobal istiləşməyə səbəb olan parnik qazlarının Milli Kadastrı, parnik qazlarının tullantılarının azaldılmasına dair milli fəaliyyət planı hazırlanmışdır. Layihənin II mərhələsində Azərbaycan Respublikasında parnik qazlarının azaldılması üçün texnologiyalara milli tələbat müəyyənləşdirilmiş, iqlim üzərində sistematik müşahidələrin hazırkı vəziyyəti və potensialı qiymətləndirilmişdir.

İqlim dəyişmələri üzrə milli səviyyədə aşağıdakı strateji vəzifələrin yerinə yetirilməsi zəruridir:

istilik effekti yaradan qazların tullantılarının statistik hesabatı, qiymətləndirilməsi, mənbələri və toplayıcıları haqqında məlumatların analitik—informasiya sistemlərinin yaradılması;

dayanıqlı sosial—İqtisadi inkişafın təmin edilməsi üçün iqtisadiyyata və təbii ekosistemlərə iqlimin təhlükəli təsirləri barədə məlumatların toplanması, təhlili və ümumiləşdirilməsi üzrə dövlət informasiya sisteminin yaradılması;

iqlim dəyişmələrinin əhalinin sağlamlığına təsirinin qiymətləndirilməsi və müvafiq adaptasiya tədbirlərinin işlənib hazırlanması;

günəş, külək və bioqazdan istilik və elektrik enerjisi alınması imkanı verən ekoloji cəhətdən təmiz texnologiyaların Azərbaycana gətirilməsinin stimullaşdırılması;

ozondağıdıcı maddələrdən istifadə olunmasının tədricən aradan qaldırılmasının başa çatdırılması.

### 5.2. Səhralaşmaya qarşı mübarizə

Azərbaycan Respublikası BMT—nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasını 1998—ci ildə ratifikasiya etmişdir. Səhralaşma üzrə mübarizəyə dair milli fəaliyyət planının hazırlanması layihəsi üzərində işlər davam edir. Layihənin yekunu kimi səhralaşmaya qarşı milli fəaliyyət planı hazırlanacaqdır ki, bu da özündə konkret tədbirlər sistemini birləşdirməlidir.

Bu Konvensiyanın tələblərinin həyata keçirilməsinin respublikamız üçün böyük əhəmiyyəti vardır. Belə ki, qlobal iqlim dəyişmələri nəticəsində baş vermiş istiləşmə, meşələrin qanunsuz qırılması, torpaqların deqradasiyası, su mənbələrinin azalması quraqlığa gətirib çıxarır ki, bu da səhralaşma prosesinin sürətlənməsinə səbəb olur.

Səhralaşmaya qarşı mübarizə üzrə milli səviyyədə aşağıdakı strateji vəzifələrin yerinə yetirilməsi vacibdir:

səhralaşma prosesinin təsirinə məruz qalmış torpaqların inventarlaşdırılması;

səhralaşmaya qarşı mübarizə üzrə milli fəaliyyət planının hazırlanması və həyata keçirilməsi;

səhralaşmaya qarşı mübarizə işlərinin səmərəliliyinin yüksəldilməsi məqsədilə proqnozlaşdırma və əhalinin məlumatlandırılması sisteminin yaradılması;

qlobal ekoloji problemlərin qarşılıqlı mənfi təsirinin qiymətləndirilməsi və müvafiq əks tədbirlərin həyata keçirilməsi;

meşəsiz ərazilərdə meşə zolaqları və yaşıllıqların yaradılması.

### 5.3. Bioloji müxtəliflik

Azərbaycan Respublikası BMT—nin Biomüxtəlifliyin qorunması haqqında Konvensiyasını 2000—ci ildə ratifikasiya etmişdir. Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2001—ci il 21 dekabr tarixli 848 nömrəli Sərəncamı ilə Bioloji müxtəlifliyin genetik ehtiyatları üzrə Dövlət Komissiyası yaradılmışdır.

Azərbaycan Respublikası Qafqaz ölkələri və bütövlükdə Avropa üzrə ən zəngin biomüxtəlifliyə malik olan ölkələrdən biridir. Azərbaycanda bir çox bitki və heyvan növləri endemik olmaqla digər ölkələrdə rast gəlinmir. Bu zəngin bioloji müxtəliflik bir çox təsirlər nəticəsində təhlükə altındadır. Tərtib olunmuş Qırmızı Kitaba görə Azərbaycan Respublikasında yüzlərlə bitki və heyvan növü təhlükə altındadırlar və müxtəlif qorunma statusuna malikdir. Azərbaycanda biomüxtəlifliyin qorunması həm milli və regional, həm də qlobal əhəmiyyətə malikdir. Bu, eyni zamanda miqrasiya edən heyvanlara da aiddir.

Bioloji müxtəlifliyin qorunması və bu məqsədlə ekoloji proseslərə və sistemlərə nəzarət edilməsinin təkmilləşdirilməsi əsas problemlərdəndir. Bu problemin həllinin əsas strateji istiqamətləri aşağıdakılardır:

biomüxtəlifliyin qorunmasına yönəldilmiş bütün beynəlxalq müqavilələrə qoşulmaq;

bioloji müxtəlifliyin əhəmiyyətli komponentlərinin müəyyənləşdirilməsi və onların qorunması üçün əlavə tədbirlərin hazırlanması və həyata keçirilməsi;

biomüxtəlifliyin vəziyyətinin monitorinqi üçün ölkə flora və faunasının Qırmızı və Yaşıl Kitablarının tərtibi və yeniləşdirilməsi;

xüsusi mühafizə olunan ərazilərdə müxtəlif qorunma statusuna malik olan bitki və heyvanlar aləminin bərpası üçün müvafiq şəraitin yaradılması;

nadir və kökü kəsilməkdə olan bitki və heyvan növlərinin genofondunun qorunmasının təmin edilməsi və onların xüsusi qorunan təbii ərazilərdə, botanika bağlarında, zooloji parklarda saxlanılması üçün şəraitin yaradılması;

biomüxtəliflik üçün təhlükənin və bu təhlükə nəticəsində ilk növbədə təsir altına düşə bilən təbii bitki və heyvan növlərinin proqnozlaşdırılması;

biomüxtəlifliyin qorunması məqsədilə milli parkların yaradılması.

## 6. SƏNAYE KOMPLEKSLƏRİ

Azərbaycanda son dövrlərdə iqtisadi göstəricilər yüksəlir, bir çox istehsal sahələri müasirləşir və yenidən qurulur. Nailiyyətlərin əldə edilməsi ilə sosial—iqtisadi göstəricilərin artması və bunun nəticəsində insanların rifahının daha da yüksəldilməsi dövlət tərəfindən əsas prioritet kimi qəbul edilmişdir. Bu prosesin həyata keçirilməsi üçün dayanıqlı inkişaf prinsiplərinin istifadəsi olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikasında havanı, suyu və torpağı ciddi çirkləndirən mənbələr, xüsusilə Sumqayıt və Bakıda yerləşmiş yanacaq—energetika və neft—kimya kompleksləridir. Köhnəlmiş texnologiya, qəza nəticəsində tez—tez dayanmalar, çirkləndirməni azaltmaq üçün avadanlığın çatışmaması və böyük miqdarda çirkləndirici maddələr hasil edən aşağı keyfiyyətli xammaldan istifadə bunun əsas səbəbidir. Sənaye məhsulu istehsalının həcminin azalması ilə ətraf mühitin vəziyyətinin hiss ediləcək dərəcədə

yaxşılaşdığını nəzərə alaraq demək olar ki, çirkləmənin əsas obyektləri köhnə müəssisələrdir.

Ölkənin bir çox sənaye sahələrində təbii və süni radioaktiv mənbələrin toplanması və istifadə olunmasını nəzərə alaraq radiasiya təhlükəsizliyinə diqqət artırılmalıdır. Radiasiya mənbələrinin vaxtaşırı inventarlaşdırılması, tullantıların xüsusi ayrılmış yerlərə təhvil verilməsi, radiasiya fonuna nəzarət dayanıqlı inkişaf konsepsiyası çərçivəsində yenidən təşkil olunmalıdır.

Sənaye müəssisələri tərəfindən ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün ekoloji menecmentin inkişaf etdirilməsi, müxtəlif proqram və layihələrin, o cümlədən «təmiz istehsalat» proqramının tətbiq edilməsi zəruridir.

Beləliklə, əgər sənaye müəssisələrində ətraf mühitin mühafizəsi sahəsində tədbirlər həyata keçirilməzsə, 1996—cı ildən başlayan sənayenin bərpası prosesi ilə mütənasib olaraq ətraf mühitin çirklənməsi prosesi də artacaqdır.

### 6.1. Yanacaq—energetika kompleksi

Respublikamızda ətraf mühiti çirkləndirən əsas sahələr məhz yanacaq—energetika kompleksinin payına düşür. 1960—1980—cı illərdə sənayenin sürətli inkişafı nəticəsində su mənbələrinin, havanın və torpaq ehtiyatlarının çirklənmə dərəcəsi daha da artmışdır. Planlı iqtisadiyyat dövründə ekoloji problemlərin həllinə ikinci dərəcəli məsələ kimi baxılması, indiki vaxtda təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edir.

Ölkəmizin, xüsusilə Abşeron yarımadasının, Xəzər dənizinin Azərbaycana aid olan sektorunun zəngin neft—qaz ehtiyatlarına malik olması, kiçik bir ərazidə güclü yanacaq—energetika kompleksinin inkişafına səbəb olmuşdur. Lakin uzun illər istifadədə olan texnoloji avadanlıqların köhnəlməsi və istismar müddətinin bitməsi mövcud ekoloji problemlərin həll edilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edir.

Enerjinin istifadəsi və enerji mənbələrinin strukturu ekoloji və davamlı inkişaf prinsiplərinin həyata keçirilməsi üçün vacib amillərdən biridir. İstehsalat və qeyri—istehsalat sahələri üçün istifadə olunan bərpa olunmayan enerji mənbələri və ümumi daxili məhsulun (ÜDM) yaradılması üçün sərf olunan enerji müasir iqtisadi və ekoloji indikatorlarına aiddir. Bu indikatorlar inkişafın davamlılıq prinsipləri əsasında həyata keçirilməsindən xəbər verir. Ölkədə həm ənənəvi enerji mənbələrinin istifadəsinin səmərələşdirilməsi, həm də bərpa olunan enerji mənbələrindən istifadəsinin genişləndirilməsi üçün böyük potensial mövcuddur.

Mövcud probemlərin həll edilməsi məqsədilə bərpa olunmayan enerjinin istifadəsinin səmərələşdirilməsi, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

istilik elektrik stansiyalarında yüksək effektli texnologiyaların tətbiqi və enerji sisteminin strukturunun optimallaşdırılması;

istehsalat və qeyri—istehsalat sahələrində müasir enerji qoruyucu texnologiyalarının istifadəsinin stimullaşdırılması;

məişətdə enerji qoruyucu vasitələrin (termoslar, temperaturqoruyucu qurğular və s.) istifadəsinin geniş tətbiqinə yönəldilmiş milli və regional proqramların hazırlanması və həyata keçirilməsi.

Bu problemlərin həlli iki əsas məqsədlə əlaqədardır:

1) Enerjiyə qənaət edən sistemlərin istifadə olunmasının təmin edilməsi.

Bu məqsədə nail olduqda milli gəlirin hər bir vahidi üçün sərf olunan enerjinin azalması təmin edilir. İstehsal olunan mal və xidmətlərin maya dəyəri azalır və iqtisadiyyatın səmərəliliyi artır. Eyni zamanda ətraf mühitə olan təsir də azalır;

2) Energetikanın inkişafı və bərpa olunan enerji mənbələrindən istifadə olunması.

Bu məqsədlərin həyata keçirilməsi üçün aşağıdakı tədbirlər görülməlidir:

kiçik hidroenergetik obyektlərin sxeminin yaradılması və tətbiqi;

günəş və külək enerjisinin istifadəsinə dair milli fəaliyyət planlarının hazırlanması;

külək enerjisindən istifadə edilməsi və müvafiq qurğuların quşların ənənəvi miqrasiya və konsentrasiya ərazilərindən uzaq yerlərdə quraşdırılması;

fərdi obyektlərdə və bələdiyyə obyektlərində bioqazın istehsalı və istifadəsi.

Fəaliyyət planlarının həyata keçirilməsi dayanıqlı inkişafı təmin etməklə yanaşı, istehsalın səmərəliliyinin artırılmasına və yeni iş yerlərinin yaradılmasına da xidmət edəcəkdir.

## 6.2. Neft—kimya kompleksi

Bu kompleks respublikamızda sənayenin ən inkişaf etmiş sahələrindən biridir. Sənaye müəssisələrinin çoxu Bakı və Sumqayıt şəhərlərində cəmləşdirilmişdir. Mövcud müəssisələrin texniki təchizatı, o cümlədən təmizləyici qurğuların əksəriyyətinin yararsız vəziyyətdə olması, qaz—toz tutucu avadanlıqların sıradan çıxması ətraf mühitə normadan artıq tullantıların atılmasına səbəb olur. Belə vəziyyətin yaranması həmçinin təbii ehtiyatlardan istifadə edilərkən böyük itkilərə yol verilməsinə səbəb olur.

Sənaye sahəsində əsas mövcud problemlərin həll edilməsi üçün, iqtisadiyyatın güclənməsinə təminat verən dayanıqlı inkişaf prinsipləri əsasında fəaliyyət göstərən, bərpa edilən və bərpa edilməyən ehtiyatlardan səmərəli şəkildə istifadə edən, rəqabətə davamlı və yüksək ixrac potensialına malik olan sənayenin formalaşması tələb olunur.

Buna nail olmaq üçün, dayanıqlı inkişaf və ətraf mühitlə bağlı məhsul və xidmətlərin stimullaşdırılması sahəsində mexanizmlərin yaradılması və təkmilləşdirilməsi tələb olunur.

Həmin məqsədi həyata keçirmək üçün ətraf mühitə atılan tullantıların mənbələri və miqdarı haqqında məlumatların toplanması, sistemləşdirilməsi və onların analitik informasiya sistemlərinin yaradılması zəruridir.

Bu tədbirlər sistemində Azərbaycan Respublikasının ərazisində ətraf mühitə atılan tullantıların mənbələrinin bütün növlərini əhatə edən məlumatların təkmilləşdirilməsi və kompüterləşdirilməsi, ümumi daxili məhsulun (ÜDM) hər bir vahidinə sərf olunan enerjinin səmərəliliyinin artırılması və ətraf mühitə atılan tullantıların azaldılması potensialının qiymətləndirilməsi nəzərdə tutulur.

Sənaye müəssisələrinin çirkləndirmə mənbələrində mövcud texnologiyaların qiymətləndirilməsi və ekoloji cəhətdən təmiz texnologiyalarla təmin edilməsinə qismən nail olunması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

kimyəvi maddələrin istifadə olunması sahəsində ekoloji təhlükəsizlik baxımından vahid dövlət proqramının yaradılması;

hər bir sənaye müəssisəsinin fəaliyyət sahəsi üzrə ətraf mühitin idarə edilməsi modellərinin hazırlanması;

dövlət və bələdiyyə müəssisələrinə, özəl müəssisələrə məhsul və xidmətlərlə bağlı ekoloji iddiaların irəli sürülməsinin yeni prinsiplər əsasında həyata keçirilməsi;

istehsal üçün təklif olunan yeni sənaye məhsullarının tətbiqinin dayanıqlı inkişaf prinsiplərinə uyğunluğunun müəyyənləşdirilməsi;

istehlakçıların hüquqlarının qorunması sahəsində ətraf mühitə dair qanunvericilik bazasının təkmilləşdirilməsi və bu zaman dayanıqlı inkişaf prinsiplərinin nəzərə alınması.

### 6.3. Dağ—mədən sənayesi

Azərbaycan qara və əlvan metallurgiyanın inkişafı üçün kifayət qədər mineral xammal ehtiyatlarına malikdir. Qara metallurgiyanın əsas xammal bazası Daşkəsən dəmir filizi yataqları, əlvan metallurgiyanın əsas xammal bazası isə Zəylik—Alunit filiz yataqlarından ibarətdir. Bu yataqlarda olan xammal ehtiyatları ölkədə dağ—mədən sənayesinin inkişafı üçün uzun illər kifayət edə bilər.

Lakin hazırda istifadədə olan istehsal texnologiyaları fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığa əsaslanır ki, bu da istehsalın səmərəliliyini aşağı salmaqla bərabər ətraf mühitə mənfi təsir göstərir. Köhnəlmiş avadanlıqlardan istifadə olunması təbii sərvətlərdən səmərəli istifadə edilməsinə imkan vermir.

Bu sahədə ekoloji baxımdan dayanıqlı inkişafın təmin edilməsi aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir: yeni texnologiyalarla təmin edilməklə metalın və metal məhsullarının, həmçinin ferroərintilərin qapalı istehsal sikllərinin yaradılması; vahid məhsulun istehsalına sərf olunan enerjinin miqdarının azaldılmasına gətirib çıxaran az enerjitutumlu texnologiyaların tətbiqi; təbii ehtiyatlardan səmərəli istifadə olunmasını təmin etmək üçün xammal mənbələrinin istismarı zamanı maksimum dərəcədə itkilərin qarşısının alınması məqsədilə müasir metodlardan istifadə etməklə müvafiq tədbirlərin həyata keçirilməsi; istismarı başa çatmış yataqların ərazilərində rekultivasiya işlərinin aparılması.

### 6.4. Tikinti sənayesi

Ekoloji baxımdan dayanıqlı inkişafı təmin etmək üçün tikinti sənayesinin müasir texnoloji imkanlarından istifadə etməklə, əhalinin normal mənzil—kommunal şəraitinin yaxşılaşdırılması yolu ilə yaşayış sektorunun imkanlarını artırmaq mümkündür.

İqtisadi artım şəraitində həm sənaye obyektlərinin, həm də yaşayış evlərinin tikilməsi artmaqdadır. Bir sıra hallarda inşaat zamanı dayanıqlı inkişaf və ekologiya sahəsində olan müasir nailiyyətlər kifayət dərəcədə nəzərə alınmır. Dayanıqlı inkişaf baxımından bu sahədə olan əsas problem ondan ibarətdir ki, məhsuldar torpaqlarda tikinti işləri aparılmasına yol verilir. Tikinti zamanı istifadə olunan material və konstruksiyalar binaların temperaturunu tələb olunan səviyyədə qorumur. Problemin digər bir aspekti ondan ibarətdir ki, kütləvi surətdə tikilən binaların element və materiallarının xüsusiyyəti elədir ki, bu binaların istismar müddəti bitəndən sonra onların utilizasiyası problemə çevrilir.

Eyni zamanda bu sahədə regional xüsusiyyətlər və ənənəvi biliklərdən lazımi dərəcədə istifadə edilmir.

Tikinti zamanı davamlı inkişaf prinsiplərinin istifadəsi sahəsində strategiyanın yaradılması və həyata keçirilməsi əsas problemlərdəndir.

Bunda əsas məqsəd, inşa olunan obyektlərin yerləşməsinin, binaların quraşdırılmasının və ətraf sahələrin planlaşdırılmasının iqtisadi və ekoloji baxımdan optimallaşdırılması üçün tədbirlərin həyata keçirilməsidir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

məhsuldar və rekreasiya əhəmiyyətli torpaqların inşaat üçün istifadəsinin qadağan edilməsi və nəzarətin gücləndirilməsi;

torpaqdan istifadənin planlaşdırılması;

hər bir yaşayış məntəqəsinin planlaşdırılması zamanı ətraf mühitə yol verilə bilən təzyiqin həcminin nəzərə alınması;

tikinti üçün istifadə olunan material və konstruksiyaların ehtimal olunan temperatur itkilərinin nəzərə alınması;

binalar üçün istifadə olunan material və konstruksiyaların onların gələcəkdə utilizasiyası ilə əlaqələndirilməsi;

enerji itkiləri ilə əlaqədar problemlərin yaranmaması üçün tikintidə müvafiq material və konstruksiyaların istifadəsinin stimullaşdırılması;

yaşayış məntəqələrinin salınması, binaların yerləşdirilməsi və tikilməsi zamanı yerli xüsusiyyətlərin nəzərə alınması.

## 6.5. Nəqliyyat

Məlumdur ki, nəqliyyatın inkişafı sivilizasiyanın tərəqqisinə yardımçı olaraq, eyni zamanda ətraf mühitə zərərli təsir göstərir, bəşəriyyətin bir çox problemlərini dərinləşdirərək dünya sivilizasiyasını qlobal ekoloji fəlakətə aparan amilə çevirir. Bu onunla əlaqədardır ki, nəqliyyat kompleks şəkildə regional ekoloji problemlər yaradır.

Nəqliyyatın müxtəlif növləri — avtomobil, dəmir yolu, su, hava nəqliyyatı yalnız onun istismarı ilə əlaqədar problemləri deyil, həm də nəqliyyat vasitələrinin istehsalı, onlara texniki xidmət göstərilməsi, işlənmiş (metal, plastik, yağlar və s.) materialların təkrar istifadəsi ilə əlaqədar problemlər yaradır.

Respublikamız inkişaf etmiş nəqliyyat infrastrukturuna malikdir. Ekoloji baxımdan dayanıqlı inkişaf prinsiplərinin həyata keçirilməsi səviyyəsi isə çox aşağıdır.

Belə ki, ölkəmizdəki nəqliyyat vasitələrinin böyük əksəriyyəti MDB ölkələrində istehsal edilmişdir. Onların modelləri bütün əsas texniki göstəricilərinə görə (qənaətlilik, etibarlılıq, təhlükəsizlik, ekoloji yararlılıq) yüksək inkişaf etmiş ölkələrdə istehsal edilən nəqliyyat vasitələrindən nəzərə çarpacaq dərəcədə geri qalır. Həmin nəqliyyat vasitələrinin əksəriyyəti fiziki cəhətdən aşınmış, ekoloji göstəricilərinə görə istismara yararsız vəziyyətə düşmüşdür.

Hal—hazırda ölkədəki avtomobillərdən atılan tullantıların zəhərlilik hədlərini müəyyənləşdirən ekoloji təhlükəsizlik standartları yoxdur. Bu günədək ölkədə keçmiş SSRİ—nin standartları qüvvədə qalır ki, bu standartlar da müasir beynəlxalq tələblərə cavab vermir. Avtomobillərin ekoloji göstəricilərinə nəzarət tələb olunan səviyyədə deyil. Əksər avtomobil magistrallarının standartlara cavab verməyən səviyyədə olması, bir çoxunun isə sıradan çıxması avtonəqliyyat vasitələri tərəfindən ətraf mühitə atılan zərərli maddələrin miqdarının daha da artmasına səbəb olur. Avtomobil nəqliyyatı sahəsində ekoloji baxımdan dayanıqlı inkişafı təmin etmək məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

avtomobil nəqliyyatının ətraf mühitə zərərli təsirinin səviyyəsini tənzimləyən normativ hüquqi aktların qəbul edilməsi;

nəqliyyat sahəsində ekoloji yönümlü harmonik siyasətin həyata keçirilməsi üçün nəqliyyat sektorunda qanunvericilik sisteminin təkmilləşdirilməsi;

avtomobil nəqliyyatında istifadə edilmək üçün ekoloji baxımdan təmiz yanacaq növlərinə keçilməsi (sıxılmış maye qaz, bioqaz və s.);

avtomobil və dəmir yollarının müasir dünya standartlarına müvafiq rekonstruksiya olunması;

şəhər daxilində avtonəqliyyat vasitələrinin sıxlığının azaldılması və tıxacların qarşısının alınması məqsədilə yaşayış məntəqələrinin ətrafında dairəvi avtomagistral yolların çəkilişinə üstünlük verilməsi.

## *7. KƏND TƏSƏRRÜFATI*

Azərbaycan Respublikasının torpaq—iqlim şəraiti, tarixi mədəniyyəti və toplanmış təcrübəsi, elmi—texniki nailiyyətləri kənd təsərrüfatının dayanıqlı inkişaf prinsipləri əsasında idarə edilməsinə imkan yaradır. Bu sahədə əsas mövcud problemin aradan qaldırılması məqsədi ilə kənd təsərrüfatı sahəsini dayanıqlı inkişaf prinsipləri əsasında idarə etməklə torpaqların, kənd təsərrüfatı bitkilərinin və heyvanlarının məhsuldarlığının artırılması yolu ilə insanların ekoloji təmiz məhsullarla təminatının yaxşılaşdırılmasına və sağlamlığının qorunmasına nail olunmalıdır.

Bu məqsədə nail olmaq üçün kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını təmin edən və dayanıqlı inkişaf prinsiplərinə əsaslanan siyasətin həyata keçirilməsi ilə əlaqədar aşağıdakı tədbirlərin görülməsi zəruridir:

dövlət orqanlarının, özəl sektorun və qeyri—hökumət təşkilatlarının kənd təsərrüfatının dayanıqlı inkişafı sahəsində əməkdaşlığının gücləndirilməsi;

fərdi təsərrüfatların və onların birliklərinin kənd təsərrüfatının dayanıqlı inkişafı üçün ayrılan fondlarla işləməsinin sadələşdirilməsi;

müasir kənd təsərrüfatı metodlarını tətbiq edən dövlət və fərdi təsərrüfatlar üçün xüsusi imtiyazların yaradılması;

kənd təsərrüfatında torpaqların eroziyasının və şoranlaşmasının qarşısını almaq məqsədilə optimallaşdırılmış əkin sistemlərindən və kənd təsərrüfatı bitkilərinin suvarılmasında mütərəqqi suvarma texnologiyalarından istifadə edilməsinin genişləndirilməsi;

kənd təsərrüfatında kimyəvi maddələrin istifadəsinin milli və regional səviyyələrdə sxemlərinin yaradılması və nəzarətin gücləndirilməsi;

torpaqların çirklənməsinə və deqradasiyasına səbəb ola bilən texnologiyalardan istifadə olunmasının qarşısının alınması.

## *8. TURİZM*

Azərbaycan Respublikası zəngin turizm potensialına malikdir. Bu, ölkənin zəngin tarixindən, yüksək mədəniyyətindən və rəngarəng təbiətindən irəli gəlir. Azərbaycanda ənənəvi turizm ilə yanaşı yeni turizm xidmətlərinin inkişafı üçün də əlverişli şərait mövcuddur.

Turizm infrastrukturunun ekoloji zərərləri minimuma endirən üsulla inkişafı və davamlı inkişaf prinsipləri əsasında idarə edilməsi əsas problemlərdəndir.

Bu məqsədə nail olmaq üçün ekoloji baxımdan davamlı inkişaf konsepsiyasına müvafiq olan milli, regional və ixtisaslaşmış turizmin inkişaf etdirilməsi ilə əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

milli turizm proqramında dayanıqlı inkişaf prinsiplərinin nəzərə alınması;

hər bir zona üçün ətraf mühitə maksimum yol veriləcək turist təzyiqinin müəyyənləşdirilməsi və onun yerinə yetirilməsinə nəzarət edilməsi;

ekoloji turizmin və o cümlədən turizmin digər yeni formalarının inkişaf etdirilməsi.

# *9. ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏT*

## 9.1. Elm və təhsil

Azərbaycan elm və təhsil sahəsində inkişaf etmiş ölkədir. Lakin ölkədə son illər elmi institutların yeni elmi məlumatları vaxtında almasına xidmət edən texniki avadanlığı əldə etməkdən və ya onları müasirləşdirməkdən ötrü maliyyə imkanları çox məhduddur. Elm və təhsil üçün ayrılan maliyyə vəsaitinin azalması elmi işə marağı müəyyən mənada azaltmış və bir çox elmi işçiləri öz sahələrini tərk etməyə və ya başqa ölkələrdə iş axtarmağa vadar etmişdir.

Uzunmüddətli insan inkişafının perspektivləri daim bütün cəmiyyətə xidmət edən təhsil və mədəni xidmətlərin keyfiyyətindən asılı olmuşdur.

Azərbaycanda intellektual və mədəni səviyyənin səmərəli şəkildə qorunması və genişləndirilməsi üçün siyasətin işlənib hazırlanması və həyata keçirilməsi yollarında ciddi səylərə ehtiyac duyulur.

Dayanıqlı inkişaf konsepsiyası yeni bir istiqamət olduğundan onun tətbiqi üçün elm və təhsil sahələrində kadrların hazırlanması və onların ixtisasının artırılması vacib amildir. Eyni zamanda hər bir ixtisas sahibinin davamlı inkişaf prinsipləri haqqında məlumatı və onun tətbiqi üzrə təcrübəsi olmalıdır.

Dayanıqlı inkişaf prinsiplərinin tədrisinin təşkili və yayılması əsas problemlərdən biridir.

Bu məqsəd üçün dayanıqlı inkişaf prinsiplərinin ali və orta məktəblərdə tədris proqramlarına tətbiq edilməsi ilə əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

qabaqcıl ali məktəblərdə dayanıqlı inkişaf üzrə pilot layihələrin həyata keçirilməsi;

pilot layihələrin nəticəsindən asılı olaraq, bu tədrisi digər ali məktəblərdə tətbiq etmək;

ekoloji baxımdan dayanıqlı inkişaf üzrə orta, orta ixtisas və ali məktəblər üçün tədris proqramlarının hazırlanması;

dayanıqlı inkişaf üzrə orta, orta ixtisas və ali məktəblər üçün tədris vəsaitlərinin hazırlanması;

elmi kadr potensialının gücləndirilməsi və elmi tədqiqat işlərinin aparılmasının stimullaşdırılması;

orta məktəb müəllimləri üçün bu sahə üzrə kursların keçirilməsi;

ekoloji təfəkkürün formalaşması, ekoloji tərbiyənin yüksəlməsi üçün əhali arasında maarifləndirmə işinin həyata keçirilməsi.

## 9.2. Mədəniyyət

Dayanıqlı inkişaf konsepsiyasının əsas prinsiplərindən olan təbii ehtiyatların və insan potensialının səmərəli istifadəsi, ətraf mühitin mühafizəsi Azərbaycan milli mədəniyyətinin ayrılmaz bir hissəsi olmuşdur. Bu öz əksini rəngarəng məşğulluq sahələrinin genişlənməsində, təbii bərpa olunan ehtiyatlardan istifadə əmsalının yüksək olmasında, xalq seleksiyasına aid olan bitki sortlarının və heyvan cinslərinin müvafiq ekoloji şəraitə maksimum uyğun olmasında tapmışdır. Yaşayış yerlərinin seçilməsi, evlərin

planlaşdırılması və tikilməsi də ekoloji şəraitə maksimum uyğun olmalı və sağlamlığa xidmət etməlidir.

Bu sahə üzrə müasir elmi nailiyyətlərə, milli mədəniyyətə cavab verən və davamlı inkişaf prinsiplərinə xidmət edən məşğulluq sahələrinin formalaşması əsas problemlərdəndir.

Milli Proqramı həyata keçirərkən milli mədəni biliklərdən istifadə edilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

iqtisadi və sosial layihələrin həyata keçirilməsində bələdiyyə və qeyri—hökumət təşkilatlarının rolunun artırılması;

regional və yerli dayanıqlı inkişaf layihələrini həyata keçirərkən milli təcrübənin nəzərə alınması;

dayanıqlı inkişaf prinsiplərinə xidmət edən yazılı və şifahi məlumatların toplanılması.

Digər problem ekoloji mədəniyyətin və dayanıqlı inkişaf prinsiplərinin geniş təbliğ olunmamasından ibarətdir.

Bu problemin həll edilməsinə nail olmaq üçün ekoloji biliklərə əsaslanan və dayanıqlı inkişaf prinsiplərinə cavab verən yaşayış və fəaliyyət mədəniyyətinin aşılanması ilə əlaqədar aşağıdakı tədbirlərin həyata keçirilməsi tələb olunur:

muzeylərdə və incəsənət salonlarında ekologiya məsələlərini işıqlandıran rəsm, foto, plakat və s. bədii sərgilərin təşkil olunması;

ekologiya mövzusunda yeni incəsənət əsərlərinin yaradılmasının stimullaşdırılması;

təbiətin qorunmasına həsr olunmuş, yerli və xarici mədəniyyət və incəsənət ustalarının və gənc istedadların iştirakı ilə müxtəlif səviyyəli festivalların və müsabiqələrin keçirilməsinin genişləndirilməsi;

ekoloji mədəniyyətin və ekoloji etikanın geniş əhali kütləsi arasında təbliği.

## *10. MİLLİ PROQRAMIN HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN [1] TƏDBİRLƏR PLANI[2]*

| Sıra №-si | Tədbirin adı | Əsas icraçılar [3] | İcra müddəti |
|---|---|---|---|
| **1** | **2** | 3 | **4** |
| | **Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadəyə dair** | | |
| 1. | Su ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində dövlət proqramının hazırlanması və həyata keçirilməsi | Nazirlər Kabineti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası,Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2005-ci illər |
| 2. | Ümumi nəzarət əsasında su ehtiyatlarından səmərəli istifadənin stimullaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi,Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2003-2007-ci illər |

| | | | |
|---|---|---|---|
| 3. | İçməli suyun keyfiyyətinin yaxşılaşdırılması, bölgələrdə yerli, alternativ su mənbələrindən istifadə edilməsinin əsaslandırılması və müvafiq standartlara uyğunlaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi, Abşeron Regional Səhmdar Su Cəmiyyəti | 2003-2010-cu illər |
| 4. | Su ekosistemlərinin fəaliyyətini tənzimləyən müvafiq normativ hüquqi aktların təkmilləşdirilməsi, su ekosistemlərinin sabitliyinə nail olmaq üçün əsas hövzələrdə monitorinq yönümlü kompleks tədqiqatların həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Milli Elmlər Akademiyası, Kənd Təsərrüfatı Nazirliyi, Ədliyyə Nazirliyi | 2003-2005-ci illər |
| 5. | Transsərhəd çayların çirklənmədən mühafizəsi və onların hövzəsində yerləşən dövlətlər tərəfindən su ehtiyatlarından səmərəli istifadə edilmə-si məqsədi ilə regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Dövlət Sərhəd Xidməti | 2003-2010-cu illər |
| 6. | Su çatışmazlığının aradan qaldırılması məqsədi ilə sənaye və digər obyektlərdə suyun təkrar istifadəsinin genişləndirilməsi üçün qeyri-ənənəvi sulardan (tullantı, kollektor-drenaj və s.) məqsədyönlü istifadə edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi,Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2003-2010-cu illər |
| 7. | Sənaye müəssisələrindəki qaz-toz tutucu qurğuların əsaslı təmir edilməsi və ya yeniləri ilə əvəz edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi | 2003-2010-cu illər |
| 8. | Nəqliyyatda qurğuşunsuz benzindən (etilsizləşdirilmiş) istifadə olunmasına tam keçilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Nəqliyyat Nazirliyi, Sənaye və Energetika Nazirliyi | 2003-2005-ci illər |
| 9. | Tələblərə cavab verməyən köhnə nəqliyyat vasitələrinin istismarının qadağan edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Nəqliyyat Nazirliyi | 2003-2007-ci illər |
| 10. | Ekoloji təmiz sərnişin nəqliyyat növlərinin tətbiqi, şəhər daxilində "piyada" zonalarının genişləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Nəqliyyat Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |
| 11. | Şəhər yaşıllıqlarının artırılması yolu ilə atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |

| | | | |
|---|---|---|---|
| 12. | Kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının mühafizə edilməsi və münbitliyinin artırılması məqsədi ilə milli fəaliyyət planının hazırlanması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 2003-2010-cu illər |
| 13. | Eroziya və şoranlaşma proseslərinin qarşısının alınması üçün müvafiq tədbirlərin həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2003-2007-ci illər |
| 14. | Neftlə çirklənmiş torpaqlarda rekultivasiya işlərinin davam etdirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2010-cu illər |
| 15. | Mövcud drenaj-kollektor və suvarma şəbəkələrinin yararlı vəziyyətə gətirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi,Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2003-2006-cı illər |
| 16. | Təbii və antropogen amillər nəticə-sində əmələ gəlmiş süni gölməçə və bataqlıqların qurudulması yolu ilə torpaq sahələrinin münbitləşdirilmə-si | Ekologiya və Təbii Sərvətlər Nazirliyi,Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 2003-2008-ci illər |
| 17. | Balıqqulağı əhəng daşından divar və üzlük materialları istehsal olunan daş karxanalarında və Abşeronun Xəzər-boyu zolağında kvars qumu karxanalarında yaranan tullantıların utilizasiyası və çirklənmiş ərazilərin rekultivasiyası | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |
| 18. | Meşələrdə qanunsuz ağac tədarükü və digər meşə qırılması ilə əlaqədar fəaliyyətin qadağan edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası | 2003-2005-ci illər |
| 19. | Bərpa olunan meşə ehtiyatlarından (meyvə, dərman və digər bitkilər) səmərəli istifadənin təşkili | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2007-ci illər |
| 20. | Rekreasiya əhəmiyyətli meşə sahələrinin müəyyən edilməsi, onlara yol verilən təzyiq həcminin müəyyənləşdirilməsi və bunun əsasında turizm və rekreasiya potensialının təyin edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | 2003-2010-cu illər |

| | | | |
|---|---|---|---|
| 21. | Yeni əkinçilik metodlarının tələbatlarına cavab verən təsərrüfat əhəmiyyətli meşəbağların layihələşdirilmə-si və salınması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Milli Elmlər Akademiyası, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 2003-2010-cu illər |
| 22. | Meşələrin ümumi fitosanitar vəziyyətinin müəyyənləşdirilməsi, habelə müxtəlif xəstəliklərdən və zərərvericilərdən mühafizə edilməsi məqsədi ilə mütəmadi olaraq müvafiq tədbirlərin həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2010-cu illər |
| 23. | Meşə ərazilərində yerləşən yaşayış məntəqələrində yaşayan əhalinin məşğulluq probleminin həlli və təbii meşə ehtiyatları ilə əlaqədar olmayan məşğulluq sahələrinin yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2003-2010-cu illər |
| 24. | İnşaat və mebel sənayesi üçün yararlı oduncaq istehsal etmək üçün müvafiq keyfiyyətə malik olan və tez böyüyən ağacların becərilməsi və istismarı | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi | 2003-2010-cu illər |
| 25. | Meşələrdə yanğın hadisələrinin qarşısının alınması məqsədi ilə xüsusiləşdirilmiş operativ kimyəvi-yanğın-söndürmə stansiyasının yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daxili İşlər Nazirliyi | 2003-2010-cu illər |
| 26. | Xəzər dənizində nərəkimilərin ehtiyatlarının qiymətləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası | 2003-2005-ci illər |
| 27. | Balıq ehtiyatlarının artırılmasının idarə edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2003-2007-ci illər |
| 28. | Balıq ehtiyatlarının artırılması və bu ehtiyatların istismarı sahəsində beynəlxalq əməkdaşlıq | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2003-2010-cu illər |
| 29. | Daxili su hövzələrində balıq ehtiyatlarının çoxaldılması və yetişdirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası | 2003-2010-cu illər |
| 30. | Xəzər dənizində marikultur istehsalının yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2003-2010-cu illər |
| 31. | Təhlükəli sənaye tullantılarının yerləşdirilməsi üçün yeni poliqonların yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |
| 32. | Məişət tullantılarının çeşidlənməsi, utilizə edilməsi və təkrar emalının təşkili məqsədi ilə mütərəqqi təcrübədən istifadə olunması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |

| | | | |
|---|---|---|---|
| 33. | Tullantılardan bioqazın alınması üçün müvafiq üsulların tətbiq edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası, Sənaye və Energetika Nazirliyi | 2003-2010-cu illər |
| 34. | Enerji alınması, eləcə də kompost alınması məqsədi ilə zibilyandırma zavodunun tikilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Sənaye və Energetika Nazirliyi | 2006-2010-cu illər |
| | **Qlobal ekoloji problemlərə dair** | | |
| 35. | İstilik effekti yaradan qazların tullantılarının statistik hesabatı, qiymətlən-dirilməsi, mənbələri və toplayıcıları haqqında məlumatların analitik-informasiya sistemlərinin yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Statistika Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2005-ci illər |
| 36. | Dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi üçün iqtisadiyyata və təbii ekosistemlərə iqlimin təhlükəli təsirləri barədə məlumatların toplanması, təhlili və ümumiləşdirilməsi üzrə dövlət informasiya sisteminin yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Milli Elmlər Akademiyası | 2003-2005-ci illər |
| 37. | İqlim dəyişmələrinin əhalinin sağlamlığına, ətraf mühitə təsirinin qiymətləndirilməsi və müvafiq adaptasiya tədbirlərinin işlənib hazırlanması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi | 2003-2005-ci illər |
| 38. | Günəş, külək və bioqazdan istilik və elektrik enerjisi alınması imkanı verən ekoloji cəhətdən təmiz texnologiyaların Azərbaycana gətirilməsinin stimullaşdırılması | Sənaye və Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2005-ci illər |
| 39. | Ozondağıdıcı maddələrdən istifadə olunmasının tədricən aradan qaldırılmasının başa çatdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2010-cu illər |
| 40. | Səhralaşma prosesinin təsirinə məruz qalmış torpaqların inventarlaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq və Xəritə-çəkmə Komitəsi, Milli Elmlər Akademiyası, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2004-cü illər |
| 41. | Səhralaşmaya qarşı mübarizə üzrə milli fəaliyyət planının hazırlanması və həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Milli Elmlər Akademiyası, Kənd Təsərrüfatı Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2005-ci illər |

| | | | |
|---|---|---|---|
| 42. | Səhralaşmaya qarşı mübarizə işlərinin səmərəliyinin yüksəldilməsi məqsədi ilə proqnozlaşdırma və əhalinin məlumatlandırılması sisteminin yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2005-ci illər |
| 43. | Qlobal ekoloji problemlərin qarşılıqlı mənfi təsirinin qiymətləndirilməsi və müvafiq əks tədbirlərin həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2005-ci illər |
| 44. | Biomüxtəlifliyin qorunmasına yönəldilmiş bütün beynəlxalq müqavilələrə qoşulmaq | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Xarici İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2010-cu illər |
| 45. | Biomüxtəlifliyin vəziyyətinin monitorinqi üçün ölkə flora və faunası üzrə Qırmızı və Yaşıl Kitabların tərtibi və yeniləşdirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2005-ci illər |
| 46. | Nadir və kökü kəsilməkdə olan bitki və heyvan növlərinin genofondunun qorunmasının təmin edilməsi və onların xüsusi qorunan təbii ərazilərdə, botanika bağlarında, zooloji parklarda saxlanılması üçün şəraitin yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2010-cu illər |
| 47. | Biomüxtəlifliyin qorunması məqsədi ilə milli parkların yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |
| 48. | Biomüxtəliflik üçün təhlükənin və bu təhlükə nəticəsində ilk növbədə təsir altına düşə bilən təbii bitki və heyvan növlərinin proqnozlaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Xarici İşlər Nazirliyi | 2003-2007-ci illər |
| | **Sənaye komplekslərinə dair** | | |
| 49. | İstilik elektrik stansiyalarında yüksək effektli texnologiyaların tətbiqi və enerji sisteminin strukturunun optimallaşdırılması | Sənaye və Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2003-2005-ci illər |
| 50. | Kiçik hidroenergetik obyektlərin sxeminin yaradılması və tətbiqi | Sənaye və Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2003-2007-ci illər |
| 51. | İstehsalat və qeyri-istehsalat sahələrində müasir enerjiqoruyucu texnologiyaların istifadəsinin stimullaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2010-cu illər |

| | | | |
|---|---|---|---|
| 52. | Məişətdə enerjiqoruyucu vasitələrin (termoslar, temperatur qoruyucu qurğular və s.) istifadəsinin geniş tətbiqinə yönəldilmiş milli və regional proqramların hazırlanması və həyata keçirilməsi | Sənaye və Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası | 2003-2010-cu illər |
| 53. | Günəş və külək enerjisinin istifadəsinə dair milli fəaliyyət planlarının hazırlanması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası | 2003-2005-ci illər |
| 54. | Külək enerjisindən istifadə edilməsi və müvafiq qurğuların quşların ənənəvi miqrasiya və konsentrasiya ərazilərindən uzaq yerlərdə quraşdırılması | Sənaye və Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2003-2010-cu illər |
| 55. | Fərdi obyektlərdə və bələdiyyə obyektlərində bioqazın istehsalı və istifadəsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi | 2003-2010-cu illər |
| 56. | Yerli xammal materialları, o cümlədən tullantıların yenidən emalı nəticəsində əldə olunan materiallar əsasında yeni inşaat materiallarının alınma texnologiyasının işlənib hazırlanması | Dövlət Tikinti və Arxitektura Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2003-2010-cu illər |
| 57. | Kimyəvi maddələrin istifadə olunması sahəsində ekoloji təhlükəsizlik baxımından vahid dövlət proqramının yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərikimya" Dövlət Şirkəti, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2005-ci illər |
| 58. | Hər bir sənaye müəssisəsinin fəaliyyət sahəsi üzrə ətraf mühitin idarə edilməsi modellərinin hazırlanması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi | 2003-2007-ci illər |
| 59. | Dövlət və özəl müəssisələrə məhsul və xidmətlərlə bağlı ekoloji iddiaların irəli sürülməsinin yeni prinsiplər əsasında həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2006-cı illər |
| 60. | İstehsal üçün təklif olunan yeni sənaye məhsullarının tətbiqinin dayanıqlı inkişaf prinsiplərinə uyğunluğunun müəyyənləşdirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi | 2003-2005-ci illər |
| 61. | İstehlakçıların hüquqlarının qorunması sahəsində ətraf mühitə dair qanunvericilik bazasının təkmilləşdiril-məsi və bu zaman dayanıqlı inkişaf prinsiplərinin nəzərə alınması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi | 2003-2010-cu illər |

| | | | |
|---|---|---|---|
| 62. | Yeni texnoloqiyalarla təmin edilməklə metalın və metal məhsullarının, həmçinin ferroərintilərin qapalı istehsal sikllərinin yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Sənaye və Energetika Nazirliyi | 2003-2010-cu illər |
| 63. | Vahid məhsulun istehsalına sərf olunan enerjinin miqdarının azaldılmasına gətirib çıxaran az enerjitutumlu texnologiyaların tətbiqi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası | 2003-2010-cu illər |
| 64. | Təbii ehtiyatlardan səmərəli istifadə olunmasını təmin etmək üçün xam-mal mənbələrinin istismarı zamanı itkilərin qarşısının alınması məqsədi ilə müasir metodlardan istifadə etməklə müvafiq tədbirlərin həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2010-cu illər |
| 65. | İstismarı başa çatmış dağ-mədən yataqlarının ərazilərində rekultivasiya işlərinin aparılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2007-ci illər |
| 66. | Məhsuldar və rekreasiya əhəmiyyətli torpaqların inşaat üçün istifadəsinin qadağan edilməsi və nəzarətin gücləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 2003-2005-ci illər |
| 67. | Hər bir yaşayış məntəqəsinin planlaşdırılması zamanı ətraf mühitə yol verilə bilən təzyiqin həcminin nəzərə alınması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2007-ci illər |
| 68. | Məskən yerlərinin salınması, binaların yerləşdirilməsi və tikilməsi zamanı yerli xüsusiyyətlərin və etnik biliklərin nəzərə alınmasının zəruriliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi | 2003-2006-cı illər |
| 69. | Tikinti üçün istifadə olunan material və konstruksiyaların ehtimal olunan temperatur itkilərinin nəzərə alınması, enerji itkiləri ilə əlaqədar problemlərin yaranmaması üçün tikintidə müvafiq material və konstruksiyaların istifadəsinin stimullaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2005-ci illər |
| 70. | Binalar üçün istifadə olunan material və konstruksiyaların onların gələcək-də utilizasiyası ilə əlaqələndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, İqtisadi İnkişaf Nazirliyi | 2003-2010-cu illər |
| 71. | Nəqliyyat sahəsində ekoloji harmonik siyasətin həyata keçirilməsi üçün nəqliyyat sektorunda qanunvericilik sisteminin təkmilləşdirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Nəqliyyat Nazirliyi, Ədliyyə Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |

| | | | |
|---|---|---|---|
| 72. | Avtomobil nəqliyyatında istifadə edilmək üçün ekoloji baxımdan təmiz yanacaq növlərinə keçilməsi (sıxılmış maye qaz, bioqaz və s.) | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi, Nəqliyyat Nazirliyi | 2003-2010-cu illər |
| 73. | Avtomobil və dəmir yollarının müasir dünya standartlarına müvafiq rekonstruksiya olunması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Nəqliyyat Nazirliyi | 2003-2007-ci illər |
| 74. | Şəhər daxilində avtonəqliyyat vasitələrinin sıxlığının azaldılması və tıxacların qarşısının alınması məqsədi ilə yaşayış məntəqələrinin ətrafında dairəvi avtomagistral yolların çəkili-şinə üstünlük verilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Nəqliyyat Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları [4] | 2003-2010-cu iller |
| | **Kənd təsərrüfatı və turizmə dair** | | |
| 75. | Dövlət orqanlarının, özəl sektorun və qeyri - hökumət təşkilatlarının kənd təsərrüfatının davamlı inkişafı sahə-sində əməkdaşlığının gücləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2010-cu illər |
| 76. | Fərdi təsərrüfatların və onların birliklərinin kənd təsərrüfatının dayanıqlı inkişafı üçün ayrılan fondlarla işləməsinin sadələşdirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2007-ci illər |
| 77. | Sırf üzvi kənd təsərrüfatı metodlarını tətbiq edən dövlət və fərdi təsərrüfatlar üçün xüsusi imtiyazların yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2008-ci illər |
| 78. | Kənd təsərrüfatında torpaqların eroziyasının və şoranlaşmasının qarşısını almaq məqsədi ilə optimallaşdırılmış əkin sistemlərindən və kənd təsərrüfatı bitkilərinin suvarılmasında mütərəqqi suvarma texnologiyalarından istifadə edilməsinin genişləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2003-2010-cu illər |
| 79. | Kənd təsərrüfatında kimyəvi maddələrin istifadəsinin milli və regional səviyyələrdə sxemlərinin yaradılması və ona nəzarətin gücləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2010-cu illər |
| 80. | Torpaqların çirklənməsinə və deqradasiyasına səbəb ola bilən texnologiyalardan istifadə olunmasının qarşısının alınması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2003-2010-cu illər |

| | | | |
|---|---|---|---|
| 81. | Milli turizm proqramında dayanıqlı inkişaf prinsiplərinin nəzərə alınması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | 2003-2010-cu illər |
| 82. | Hər bir zona üçün ətraf mühitə maksimum yol veriləsi turist təzyiqinin müəyyənləşdirilməsi və onun yerinə yetirilməsinə nəzarət edilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi | 2003-2010-cu illər |
| 83. | Milli parkların ərazilərində ekoloji turizmin və o cümlədən turizmin di-gər yeni formalarının inkişaf etdiril-məsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | 2003-2010-cu illər |
| | **Elm, təhsil və mədəniyyətə dair** | | |
| 84. | Ali məktəblərdə dayanıqlı inkişaf üzrə pilot layihələrin həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi | 2003-2010-cu illər |
| 85. | Elmi kadr potensialının gücləndiril-məsi və elmi tədqiqat işlərinin aparılmasının stimullaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası | 2003-2007-ci illər |
| 86. | Dayanıqlı inkişaf üzrə ali məktəblər üçün dərs vəsaitinin hazırlanması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi | 2003-2008-ci illər |
| 87. | Dayanıqlı inkişaf üzrə orta, orta ixtisas və ali təhsil müəssisələri üçün tədris proqramları və dərsliklərin hazırlanması, xüsusi kurslar və məşğələlərin keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi | 2003-2010-cu illər |
| 88. | İqtisadi və sosial layihələrin həyata keçirilməsində bələdiyyə və qeyri-hökumət təşkilatlarının rolunun artırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |
| 89. | Muzeylərdə və incəsənət salonların-da ekologiya məsələlərini işıqlandıran rəsm, foto, plakat və s. bədii sərgilərin təşkil olunması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | 2003-2010-cu illər |
| 90. | Ekologiya mövzusunda yeni incəsənət əsərlərinin yaradılmasının stimullaşdırılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət Nazirliyi | 2003-2010-cu illər |
| 91. | Təbiətin qorunmasına həsr olunmuş yerli və xarici mədəniyyət və incəsənət ustalarının, gənc istedadların iştirakı ilə müxtəlif səviyyəli festivalların və müsabiqələrin keçirilməsinin genişləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət Nazirliyi, şəhər (rayon) icra hakimiyyəti orqanları | 2003-2010-cu illər |
| 92. | Etnik biliklərin qorunması və gələcək nəsillərə çatdırılmasına dair regional layihələrin həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | 2003-2007-ci illər |

| | | | |
|---|---|---|---|
| 93. | Dayanıqlı inkişaf üzrə respublika əhalisinin maarifləndirilməsi tədbirlərinin həyata keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi | 2003-2010-cu illər |